# Ümummilli lider Heydər Əliyev obrazı müstəqillik illərinin ədəbi, ədəbi-sənədli, fəlsəfi-publisistik kontekstində

**Elnarə Qaragözova**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: e.garagozova.bsu@gmail.com

**Annotasiya.** Dünya şöhrətli siyasi lider Heydər Əliyev şəxsiyyətinin müxtəlif rakurslardan işıqlandırılması problemi müasir yerli və xarici elmi mərkəzlərin daim diqqət mərkəzində olmuşdur. Ümummilli liderin obrazı tarixi, fəlsəfi, publisistik, siyasi və bədii aspektləri nəzərə alınmaqla işlənmiş, bu mövzuda dəyərli tədqiqatlar aparılmışdır. Məqalədə tədqiq olunan fəlsəfi ədəbi əsərlər və xatirələr Heydər Əliyevin ədəbiyyat və mədəniyyətin hamisi obrazını təsdiqləyir. Bu mənbələr Ulu öndərin Azərbaycanın Qarabağın ayrılmaz tərkib hissəsi olduğunun tanınması və ölkəmizin işğalçılardan azad edilməsi uğrunda apardığı siyasi mübarizənin konturlarını əks etdirən tarixi-bədii sənədlər kimi də dəyərlidir.
**Açar sözlər:** Ümummilli lider, memuar, hekayə, obraz, fəlsəfə

**Məqalə tarixçəsi:** göndərilib – 11.09.2023; qəbul edilib – 25.09.2023

# The image of the national leader Heydar Aliyev in the literary, literary-documentary, philosophical-publicistic context of the years of independence

**Elnara Garagozova**
Doctor of Philosophy in Philology, associate professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: e.garagozova.bsu@gmail.com

**Abstract.** The problem of illuminating the personality of Heydar Aliyev, a world-renowned political leader, from different perspectives has always been the focus of modern local and foreign science centers. The image of the national leader has been elaborated from historical, philosophical, journalistic, political, and artistic aspects, and valuable studies have been conducted on the topic. In addition to describing the image of Heydar Aliyev as a patron of literature and culture, the mentioned works and memoirs are also valuable as historical and artistic documents reflecting the outlines of the great leader’s struggle for recognition of the fact that Karabakh is an integral part of Azerbaijan and the liberation of our country from invaders.
**Keywords:** National leader, memoir, story, image, philosophy

**Article history:** received – 11.09.2023; accepted − 25.09.2023

## Giriş / *Introduction*

Dünya miqyasında tanınan siyasi lider Heydər Əliyev şəxsiyyətinin fərqli rakurslardan işıqlandırılması problemi daim müasir yerli və xarici elm mərkəzlərinin diqqət mərkəzində olmuşdur. Ümummilli liderin obrazı tarixi, fəlsəfi, publisistik, siyasi, bədii aspektlərdən işlənmiş, mövzu ilə bağlı dəyərli tədqiqatlar aparılmışdır.

## Əsas hissə / *Main part*

**Ədəbi kontekst.** Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinin qeyd edildiyi, "Heydər Əliyev ili" adlandırılan 2023-cü ilin ədəbiyyatşünaslıq gündəminin əsasını dahi liderin obrazının ədəbiyyatda əksi və bu obrazın ədəbiyyat-tarix kontekstində araşdırılması təşkil edir. Bu proses çağdaş ədəbiyyatşünaslığımızda daha öncəki illərdə də izlənilirdi. Müstəqillik illərində Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Ümummilli liderin obrazı elmi əsaslarla işlənilmiş, bu kontekstdə fərdi araşdırmalarla yanaşı, bir neçə kollektiv monoqrafiya da işıq üzü görmüşdür. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun 1998-ci ildə çap olunan "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı" adlı kollektiv monoqrafiyası 2009-cu ildə təkmilləşdirilərək yenidən nəşr edilmiş və bu təkmil nəşr Dövlət mükafatına layiq görülmüşdür. 2018 və 2019-cu illərdə isə çağdaş ədəbiyyatşünaslıq elmini təmsil edən əsas imzaların birgə əməyinin nəticəsi olan,akademik İsa Həbibbəylinin ideya müəllifliyi və ümumi redaktəsi ilə hazırlanmış "Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən idela" ikicildlik kollektiv monoqrafiyası işıq üzü gördü. Bu monoqrafiyada Ümummilli liderin obrazı fərqli aspektlərdən çağdaş ədəbiyyatın güzgüsündə yeni imzaların qələmində tədqiq olunmuş, Heydər Əliyev obrazının müstəqillik dövrü ədəbiyyatımızda inkişaf dinamikası izlənilmişdir.

2023-cü ilin elmi gündəmində Heydər Əliyev obrazının işıqlandırılmasında Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşlarının imzaları özəlliklə nəzərə çarpır. Bu ilin may ayına qədər dövrü mətbuatda "Heydər Əliyev ili"nə töhfə olaraq akademik İsa Həbibbəylinin "Heydər Əliyevin ədəbiyyat siyasəti və müasir dövr", akademiyanın müxbir üzvü Tehran Əlişanoğlunun "Anarın "Unudulmaz görüşlər"ində Heydər Əliyev", "Ulu öndər Heydər Əliyev müstəqillik dövrü ədəbiyyatının memarı kimi", filologiya elmləri doktoru Elnarə Akimovanın "Heydər Əliyevin siyasi fəaliyyətində Cənubi Azərbaycan: sevgisi və ağrısı ilə", filologiya üzrə fəlsəfə doktoru Aslan Salmansoyun "Heydər Əliyev və Səməd Vurğun ocağı", filologiya üzrə fəlsəfə doktoru Gülnar Səmanın "Heydər Əliyev obrazı müstəqillik illərində yazılmış poemalarda", bu məqalənin müəllifinin "Yunus Oğuzun "Tarix ibrətdir" tarixi-fəlsəfi-publisistik əsərində Ümummilli lider Heydər Əliyev obrazı" məqalələri dərc olunmuşdur.

Çağdaş ədəbiyyatımızda Ümummilli lider Heydər Əliyevin obrazının işlənməsi bir neçə aspektdə özünü göstərir:

- Heydər Əliyevin ədəbiyyat, mədəniyyət hamisi obrazı
- Heydər Əliyevin xilaskar obrazı
- Heydər Əliyevin lider obrazı

Müstəqillik dövründə yaranan ədəbiyyatın ədəbi növlər və janrlar sistemində Ümummilli liderin obrazının bu aspektləri müxtəlif səviyyələrdə təzahür edir. Bu sistemdə əsas yeri, üstün mövqeni poetik nümunələr tutur. Zəlimxan Yaqubun, Nəriman Həsənzadənin, Fikrət Qocanın, Musa Urudun, Vahid Əzizin, Baba Vəziroğlunun, Vaqif Bəhmənlinin, Əli Rza Xələflinin, Yusif Nəğməkarın, Vüqar Əhmədin, Oqtay Rzanın, Xanım İsmayılqızının, Elxan Zal Qaraxanlının qələmindən süzülən bu nümunələr Heydər Əliyevin bədii-poetik obrazının yaradılmasına rəvac vermişdir. Dramaturgiyada Hidayətin "Burdan min atlı keçdi", Aqşin Babayevin "Xilaskar", Adil Babayevin "Koroğlunun Çənlibelə qayıdışı", İftixar Piriyevin "Qurtuluş dastanı" pyeslərində Ümummilli liderin obrazının konturları aydın görünür. Poeziya və dramaturgiyada Heydər Əliyevin xilaskar və lider obrazları əsas vurğulanan məqamdır. Müstəqillik dövrünün memuar ədəbiyyatında isə Heydər Əliyevin ədəbiyyat, mədəniyyət hamisi obrazına diqqət çəkilir. Hafiz Paşayevin "Bir səfirin manifesti", Anarın "Unudulmaz görüşlər", Elçinin "Tarixlə üz-üzə dayanmış adam", Mövlud Süleymanlının "Qırx ilin yeddi görüşü", İsa Hüseynovun "Həyatımdan səhifələr", Vidadi Babanlının "Unutmadığım günlər" əsərləri Ulu öndər haqqında qələmə alınmış dəyərli ədəbi-tarixi nümunələrdir. Əlbəttə, Ümummilli liderin bədii obrazını işləmək ədibdən çox böyük məsuliyyət və istedad tələb edir. Sadaladığımız bədii və sənədli nümunələrin müəllifləri həm də bu və ya digər şəkildə Heydər Əliyev fenomeni ilə ünsiyyətdə olmuş, yaxud həm gəncliyi, həm də yetkinlik dövrü Ulu öndərin siyasi fəaliyyət dövrünə təsadüf etmiş qələm sahibləridir. Bu iki aspekt həmin qələm sahiblərinə Ümummilli liderin obrazını yaratmaq şansını nəsib etmişdir.

Ümummilli lider Heydər Əliyevin obrazı müstəqillik dövrü ədəbiyyatımızın dramatik və lirik növündə öz əksini müəyyən qədər tapmışdır. Epik növün sənədli janrları olan xatirə və oçerkdə də

ulu öndərin obrazı mərkəzi mövqedədir. Lakin  epik növün hekayə, roman və povest janrları ədəbi gündəmdə Ümummilli lider obrazının təzahürü baxımından çox zəif təmsil olunur. Heydər Əliyev obrazının müəyyən nəsr əsərlərində fraqmentar şəkildə işlənməsi isə obrazın tam açılmasına imkan vermir. Çağdaş nəsrimizdə Heydər Əliyev obrazı bir neçə hekayə ilə təmsil olunur. Bu kontekstdə nəzər saldığımız ilk nümunə Qalib Şəfahətin "İki sahil" qəzetinin 8 may 2021-ci il sayında dərc olunmuş "Xilaskar" hekayəsidir. Hekayənin qəhrəmanı Nurlan 2020-ci ilin şanlı Vətən müharibəsinin iştirakçısı olan döyüşçünün oğludur. Atasının xiffətini çəkən uşaq müharibə günlərində bir arzu ilə – atasına qovuşmaq arzusu ilə yaşayır. Hər şəhid xəbərindən qübarlanan məktəbli dərs zamanı da özünü xəyalən atasının yanında – cəbhədə hiss edir. Nurlan bilir ki, atasına qovuşmağın yeganə yolu Qarabağın düşmən tapdağından xilas edilməsidir. Dərsdə müəllimin Heydər Əliyevin şəkli ilə bağlı sualı və uşaqların bu kontekstdə müzakirəsi yazıçının Ümummilli liderin obrazını yaratmaq yolunda maraqlı priyomu kimi yadda qalır. Heydər Əliyevin ideyalarının bu gün də yaşadığını, onun davamçısı olan cənab Prezident İlham Əliyevin timsalında reallaşdığını Qalib Şəfahət bir məktəblinin saf dünyası fonunda məharətlə vizuallaşdırır. Müəlliminin Ümummilli liderin ideyalarının həmişəyaşarlığı ilə bağlı söhbətindən təsirlənən uşağın ağlayaraq Heydər Əliyevin heykəlindən Qarabağın düşməndən tez alınmasını və atasını qayıtmasını xahiş etməsi ilə Şuşanın azadlığı və müharibənin bitməsi xəbəri üst-üstə düşür. Körpə bir azərbaycanlının qəlbindən yüksələn və hekayənin sonunda verilən "Var olsun Heydər baba, mənim sözümü eşidib. Qarabağ bizimdir!"  nidası Ümummilli liderə və onun davamçısı olan prezidentimizə ümumxalq məhəbbətini, inamı və etibarı simvolizə edir.  Hekayənin təhlilindən də aydın göründüyü kimi çağdaş nəsrimizdə Heydər Əliyev obrazının xilaskar missiyası davam edir. Lakin Ümummilli liderin bu hekayədəki xilaskar obrazı daha öncəki bədii əsərlərdəki xilaskar obrazından fərqlənir. Belə ki, əvvəlki bədii nümunələrdəki xilaskar obrazı Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışını və müasir Azərbaycanın qurulması yolunda sağlığında atdığı addımları, əməlləri tərənnüm edirdi. Qalib Şəfahətin "Xilaskar " hekayəsində isə bu xilaskarlıq missiyasının Ümummilli liderin əbədiyyətə qovuşmasından sonra da davam etməsi, ideyaların əbədiliyi mövzusu önə çəkilir.

Nicat Kamranoğlunun "Respublika" qəzetinin 2018-ci il 18, 20, 25 may tarixli saylarında yayımlanmış "Təxəyyül reallığı" hekayəsində isə dostu ilə birgə Bilgəh çimərliyində dincəlməyə gedən və yuxuya dalaraq zamanda keçid edən qəhrəman 1957-ci ilin reallıqları ilə oyanır. Keçmiş zamanda casus kimi qarşılanan qəhrəmanlar sərt sovet reallıqları fonunda Ümummilli liderin yaratdığı  müstəqil Azərbaycandakı şəraitin, azadlığın həsrətini çəkirlər. Gənc Heydər Əliyevlə qarşılaşan dostlar ona tarixin sonrakı dönəmlərində keçəcəyi yoldan və gələcəkdə  xalqının Ümummilli lideri olmasından bəhs edirlər. Bu zamanda səyahət və gənc Heydər Əliyevlə görüş epizodu  Nicat Kamranoğlunun tapıntısıdır. Yazıçı bu məqam vasitəsilə Heydər Əliyevin həyatı və fəaliyyəti ilə bağlı faktları məharətlə bədii mətnə daxil edir və fantastik mətndə Ümummilli liderin real obrazını yaradır. Yazıçı dostların bu nəqli vasitəsilə Ulu öndərin obrazını yaratmaqla yanaşı, müstəqil Azərbaycanın vətəndaşlarının, xalqın ona olan böyük sevgisini və minnətdarlığını obrazlaşdıra bilir. Hekayənin qəhrəmanları olan dostlar yuxudan ayılanda həm Heydər Əliyevlə fantastik görüşün, həm də müstəqil Azərbaycanın vətəndaşı olmağın sevincini və qürurunu yaşayırlar.

Qalib Şəfahətin realist nəsr nümunəsi olan "Xilaskar" hekayəsindən fərqli olaraq, Nicat Kamranoğlunun "Təxəyyül reallığı" hekayəsi fantastik əsərdir. Hər iki əsərdə Heydər Əliyevin xilaskar obrazı yaradılsa da, hər müəllif bunu müxtəlif kontekstdə reallaşdırıb. Qalib Şəfahətin əsərində Ümummilli liderin xilaskar obrazı Qarabağ uğrunda Vətən müharibəsi kontekstində, Nicat Kamranoğlunun hekayəsində isə müstəqil Azərbaycanın müasir obrazı və inkişafı kontekstində təqdim olunur. Qalib Şəfahət Ulu öndərə ümumxalq sevgisini bir məktəbli uşağın düşüncələri, Nicat Kamranoğlu isə müstəqil Azərbaycanın iki gəncinin fantastik röyası vasitəsilə açır.

Əlbəttə, bu hekayələr Ümummilli liderin çağdaş nəsrdə tam obrazının yaradıldığını deməyə əsas vermir. Lakin bu nümunələr "nəsrdə Heydər Əliyev obrazı" ifadəsini işlətməyə və bu obrazın gələcək konturları haqqında müəyyən fikir yürütməyə imkan yaradır.

**Ədəbi-sənədli kontekst.** Azərbaycan ədəbiyyatında memuarlar ilk öncə ayrı-ayrı müəlliflərin əsərlərində, şairlərin fəxriyyələrində, mədhiyyələrində, həbsiyyələrində, mərsiyələrində özlərinin və ya başqalarının, xüsusən də müasirlərinin həyat və fəaliyyətləri haqqında kiçik qeydlər

şəklində təzahür etmişdir. Bu tipli məlumatlara ədəbiyyat topluları olan təzkirələrdə daha çox rast gəlinir. Qeyd etmək yerinə düşər ki, Azərbaycan aşıq sənətinin vücudnamə şeir şəkli də avtobioqrafik səciyyə daşıyır, burada müəllifin ömrünün bütün dövrləri əks olunur.

Azərbaycan ədəbiyyatında ən məhşur memuarlardan biri Cəlil Məmmədquluzadənin "Xatiratım" əsəridir. Bu əsər Azərbaycan ədəbiyyatında gündəlik janrdan memuar janrına keçidin bariz nümunəsidir. Mübhəm, şəxsi qeydləri özündə əks etdirən gündəlikdən fərqli olaraq, memuarın müəllifi hadisələrin başqaları tərəfindən oxunacağını nəzərə alaraq yazır və bu həmin janrda qələmini sınayan müəllifdən əlahiddə bacarıq tələb edir. Memuar müəllifi həm xatirələrini, real hadisələri canlı şəkildə ifadə etməli, həm də əsərin ictimailəşəcəyini nəzərə alaraq onu lüzumsuz duyğu və ştrixlərdən islah etməlidir.

Müstəqillik dövrünün memuar ədəbiyyatından qırmızı xətlə keçən bir obraz var: Ümummilli lider Heydər Əliyevin obrazı. Dünya şöhrətli siyasətçinin və xalqının böyük oğlunun xatirələrdə yaşayan real obrazının bədii-publisistik nəsrdə işlənməsi kimi məsuliyyətli və tarixi məqam müstəqillik dövrü ədəbiyyatında Hafiz Paşayevin "Bir səfirin manifesti", Anarın "Unudulmaz görüşlər", Elçinin "Tarixlə üz-üzə dayanmış adam", "Axirət əkini", Mövlud Süleymanlının "Qırx ilin yeddi görüşü", İsa Hüseynovun "Həyatımdan səhifələr", Vidadi Babanlının "Unutmadığım günlər" əsərləri ilə əbədiləşmişdir. Bu bədii-sənədli nümunələrin hər biri Heydər Əliyev fenomeni ilə ünsiyyətdən, onun tarix səhnəsindəki fəaliyyətinə şahidlikdən və müstəqil Azərbaycanın qurucusuna olan ehtiramdan yoğrulmuşdur.

Qeyd etdiyimiz memuarlar Heydər Əliyevin ədəbiyyat, mədəniyyət hamisi obrazını fiksə etməklə yanaşı, Ulu öndərin Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olması faktının dünyaya qəbul etdirilməsi və yurdumuzun azad olunması uğrunda mübarizəsinin, siyasətinin ştrixlərini əks etdirən tarixi-bədii sənədlər kimi də dəyərlidir. Ümummilli lider Heydər Əliyevin Siyasi Büro üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində çalışması, dünyada tanınan siyasi xadim kimi avtoriteti ermənilərin Qarabağ arzusuna, "Böyük Ermənistan" xülyasına mane olurdu. Onun bu vəzifələrdən azad olunması daşnakların əsas məramı və arzusu idi. Heydər Əliyevin ittifaq rəhbərliyindən uzaqlaşdırılması "erməni arzusu"nun reallaşmasına və Azərbaycan üçün faciəli günlərin başlanğıcına səbəb oldu. Xalq yazıçısı Elçin "Dünya axirət əkini" əsərində həmin dövrü belə xatırlayır: "Yarmarkadan sonra mən Almaniya Demokratik Respublikası Yazıçılar İttifaqının dəvətilə "Drujba narodov" jurnalının baş redaktoru, ədəbiyyatımızın o zamankı İttifaq səviyyəsində tanınmasında müəyyən xidmətləri olan Sergey Baruzdinlə birlikdə Şərqi Berlinə getdim və orada eşitdim ki, Heydər Əliyev Siyasi Büro üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən azad olunub. Təkcə elə S.Baruzdinin simasında "sovet cəmiyyəti" deyilən o ictimai əxlaq pozğunluğunun bu hadisəyə necə münasibət bəsləyəcəyi mənim üçün tamam aydın idi: bütün səfər boyu yeri düşdü-düşmədi, mənə və mən iştirak edən məclislərdə başqalarına Heydər Əliyevi şit-şit tərifləyən yazıq Sergey Alekseyeviç birdən-birə 180 dərəcə dəyişdi, onu tənqid etməyə, haqqında şovinist bir istehza ilə danışmağa başladı. Təbii ki, cavabını verirdim və Baruzdin də artıq dünyasını dəyişdiyi üçün bu barədə təfərrüata varmaq istəmirəm, amma məsələ burasındadır ki, onun o gözlənilməz dəyişikliyi küləyin səmt göstəricisi idi. Berlindən qayıdanda gecə Moskvada "Moskva" mehmanxanasına ayaq basarkən ilk gördüyüm dost adam Elmlər Akademiyamızın prezidenti Eldar Salayev oldu və salamsız-kəlamsız ona dediyim sözlər indiyə kimi mənim də yadımdadı, Eldar Salayevin də. Dedim: "– Görəcəksən, birinci ermənilər başlayacaq!.." Təəssüf ki, belə də oldu. Heydər Əliyev nüfuz sahibi idi və o nüfuz, hətta erməni daşnak irqçiliyinin belə qarşısında bir səddə çevrilmişdi" [3].

Heydər Əliyev öz doğma Azərbaycanını hansı təhlükələrin gözlədiyindən xəbərdar idi. Bu səbəbdən respublikaya rəhbərlik etdiyi illərdə vətənin gələcəyi üçün böyük önəm daşıyan, sonrakı onilliklərdə öz bəhrəsini verəcək, müstəqil Azərbaycanın taleyində mühüm rol oyanayacaq addımlar atırdı. Ulu öndərin bu dövrdəki fəaliyyətində Qarabağla bağlı atdığı, gələcəyə hesablanmış addımlar xüsusilə böyük əhəmiyyətə malik idi. Xalq yazıçısı Anar "Qalib gəldi, qalib getdi" əsərində Ümummilli liderin bu aspektdəki fəaliyyətini vurğulayaraq yazır: "Şuşada əzəmətli Vaqif məqbərəsini, Natəvan heykəlini ucaltmaqla, Üzeyir Hacıbəyli, Bülbül muzeylərini açmaqla, Şuşada təntənəli beynəlxalq sənət tədbirləri keçirməklə Heydər Əliyev bu qədim Azərbaycan şəhərinin milli

simasını müəyyənləşdirirdi. Axı 50-ci illərdə Şuşada yeganə iki heykəlin Nelson Stepanyanın və Tevosyanın büstləri olduğunu mən yaxşı xatırlayıram. Heydər Əliyev Azərbaycan KP MK-nın Birinci katibi olduğu illərdə Dağlıq Qarabağda erməni millətçiliyi meyillərinə qarşı çıxarılmış partiya qərarı da yadımdadır. Nə bundan əvvəl, nə sonra erməni millətçiliyi meyillərinə qarşı bu kəskinlikdə partiya qərarı qəbul olunmayıb" [2].

1992-ci ildə Qarabağın tacı olan Şuşanı ələ keçirən erməni işğalçıları Vaqif məqbərəsinə qarşı vandalizm aktı icra etmiş, Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün heykəllərini güllələmişdilər. Bu vandalizmin əsas səbəbi Heydər Əliyevin Şuşanın milli siması ilə bağlı siyasətinin izini silmək, qədim Azərbaycan şəhərini erməni şəhəri kimi qələmə vermək cəhdi idi.

2020-ci ildə tarixi ədalət dəmir yumruqla bərpa olundu. Vətən müharibəsində qələbə çalan Azərbaycan Qarabağı erməni tapdağından xilas etdi və Müzəffər Ali Baş Komandan İlham Əliyevin göstərişi ilə Şuşada ilk bərpa olunan mədəni obyektlərdən biri məhz Molla Pənah Vaqifin məqbərəsi oldu. 30 avqust 2021-ci ildə Şuşada Vaqif poeziya günlərində Vaqifin məqbərəsinin təmirdən sonra açılışında Prezident İlham Əliyevin çıxışı tarixi ədalətin qələbəsi, Heydər Əliyev ideyalarının təntənəsi kimi səsləndi: "Əziz dostlar, təxminən 40 il bundan əvvəl, bax, bu yerdə atam durmuşdu, mən isə o tərəfdə durmuşdum. Şaxtalı-qarlı havada Vaqifin məqbərəsinin açılışı idi. Ondan sonra ikinci dəfə 1982-ci ilin iyul ayında – iyulun 29-da atamla bərabər ikinci dəfə Şuşaya gəlmişdim. O vaxt Vaqif Poeziya Günləri keçirilirdi. Bu gün isə ikinci dəfə Vaqifin məqbərəsinin açılışını biz qeyd edirik. Vaqif Poeziya Günləri keçirilərkən atamın 59 yaşı var idi. Bu gün mənim 59 yaşım var. Bəziləri hesab edə bilər ki, bu, təsadüfdür. Ancaq mən hesab edirəm ki, burada böyük rəmzi məna var, tarix təkrarlanır. Azərbaycan tarixinin qara səhifəsi artıq arxada qaldı və yenidən biz nəfəs almağa başlamışıq" [1].

Ümummilli liderin çox sevdiyi doğma Azərbaycanı onun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyünü bərpa etmiş, qüdrətli, dünya miqyasında öz adını tanıdan və inkişaf tempi ilə heyrətləndirən dövlət kimi tarixin səhifələrinə öz imzasını atmağa, gələcəyə doğru addımlamağa davam edir!

**Fəlsəfi-publisitik kontekst**. Yunus Oğuzun fəlsəfi, tarixi, publisist düşüncələrinin toplusu olan, "Keçmişdən gələcəyə nə daşıyırıq?" kimi ağır, məna çoxqatlılığı ilə seçilən bir sualın cavabı kimi meydana çıxan "Tarix ibrətdir" (Bakı, 2022) kitabı təzadlı və xalqımız, dövlətimiz üçün həlledici bir dövrün şahidinin qələmə aldığı salnamədir. Kitabın əvvəlində müəllif yazır: "İstər elmi, istərsə də bədii əsərlərimdə xalqımın, dövlətimin gələcəkdə möhkəm və qüdrətli olması üçün onun pisi və yaxşısı ilə dörd əsas amili önə çəkmişəm. Məhz bu amillər millətimi keçmişdən gələcəyə daşıyır, etnosun və xalqın yaratdığı dövlətin davamlılığını təmin edir.

Bunlar:

1. Milli ruhumuz və dilimiz;
2. Milli kimliyimizin tarixi;
3. Etnososial psixologiyamız;
4. Maddi və qeyri-maddi mədəni sərvətlərimizdir". "Yunus Oğuz "Tarix ibrətdir" kitabında məhz bu amillərin işığında dövlətçilik tariximizin müasir mərhələsinə – milli-azadlıq mücadiləsindən bu günədək olan dövrünə nəzər salmağı qarşısına məqsəd qoymuş və bu məqsədinə nail olmuşdur. Yunus Oğuzun bu hadisələrin şahidi və birbaşa iştirakçısı kimi qənaətləri sayəsində bu əsərdə həmin dövrün tarixi mənzərəsi tam şəkildə, bütün aspektləri ilə açılır.

Müstəqilliyin qazanıldığı ilk illərdən bu günə qədər xalq və dövlət olaraq aldığımız, yaxud almalı olduğumuz ibrət dərslərinə analitik baxışı sərgiləyən bu kitabda Ümummilli lider Heydər Əliyevin obrazı mühüm yer tutur. "Tarix ibrətdir" həmin dövrün hadisələrində, azadlıq mübarizəsinin əsasının qoyumasında və yetişməsində Ümummilli liderin birbaşa və dolayı yolla iştirakını əsaslı faktlarla ortaya qoyur. Heydər Əliyev fenomeninin xalqımız və onun varlığının qorunub saxlanılması üçün önəmini vurğulamaq üçün Yunus Oğuz tarixə ekskurs edərək azadlıq mübarizəsinin ilkin rüşeymlərini doğuran faktorun – erməni azğınlığının təkrar alovlanmasına rəvac verən, onları təcavüzə cəsarətləndirən məqamı diqqətə çatdırır: "Azərbaycan üçün bu, 1987-ci ildə başladı. Belə ki, imperiyanın Baş katibinin köməkçisi akademik Aqambekyan Fransada olarkən qəzetlərin birində müsahibəsində bildirmişdi ki, Dağlıq Qarabağın Ermənistanın tərkibinə verilməsi haqqında artıq

məsələ həll olunub. Bu zaman Moskvada Azərbaycanın haqq səsi uğrunda mübarizə aparmaq üçün daha heç kim qalmamışdı. Çünki Qorbaçov və onun erməni havadarları Heydər Əliyevi Siyasi Büro üzvlüyündən artıq uzaqlaşdırmışdılar. Deyilənə görə, həmin gün İrəvanda bu münasibətlə toy-bayram etdilər. Ümid yalnız xalqa və onun ziyalılarına qalmışdı. Parisdə olduğu kimi, Moskvada da ermənilər bu ölkənin siyasətinə təsir edəcək ikinci və üçüncü dərəcəli vəzifələri öz əllərində saxlayırdılar. Oradakı tək səsimiz H.Əliyev isə Siyasi Bürodan artıq istefaya göndərilmişdi" [6, s.12]. Bəli Heydər Əliyevin siyasi, inzibati səhnədən uzaqlaşdırılması Azərbaycan üçün gələcək faciələrin əsasını qoydu. Azadlıq mübarizəsi alovlandı. Lakin təcrübəli siyasi rəhbərin yoxluğu səbəbindən bir sıra faciələrə səbəb olacaq səhvlərə yol verildi. Vulkan kimi püskürən, azadlıq eşqi ilə alovanan passionarları düzgün yönləndirmək, azadlıq mübarizəsini həm maddi, həm insani, həm də mənəvi kapital baxımından daha az itki ilə yekunlaşdırmaq olardı. Əgər həmin dövrdə Heydər Əliyev kimi təcrübəli siyasi lider rəhbərlikdə olsa idi, azadlıq mübarizəsində iştirak edən insanların mübarizə bitdikdən sonra düzgün yönləndirilməsi, Azərbaycan siyasi elitasının, vətənpərvər siyasi xadimlərin daha erkən formalaşdırılması mümkün ola bilərdi: "1988-ci ildən hərəkata qoşulanların və onların liderlərinin əksəriyyəti gənc və çox passionar idik. Bəzilərimizin fikirləri ifrat radikallığa qədər gedib çıxırdı. O zaman heç kim bilmirdi ki, Xalq Hərəkatı və Milli Azadlıq Hərəkatı hər kəsin gələcək taleyini müəyyənləşdirib. İndi hadisələrin üstündən otuz iki il keçib. Dönüb geriyə baxanda görürsən ki, bütöv iki nəsil keçmişin nisgililə yaşayır, çünki bəziləri inersiya ilə hərəkatçılıqlarını siyasi partiyalarda, bəziləri millət vəkili olmaqda, bəziləri biznesdə, kimlərsə vəzifələrdə qalmaqda davam etdirirlər. Amma çoxları ortalıqda itib batdılar, heç kim Xalq Hərəkatının iştirakçılarına nə mitinqlərdə, nə də mətbuatda başa salmırdı ki, bəs bu hərəkat qələbə çaldıqdan sonra əksəriyyət yenə də öz işinə qayıtmalıdır. Bəlkə də lazım deyildi bunu demək, çünki müstəqil dövlətə yeni siyasi elita və milli burjuaziya lazım idi. Bunu bir o qədər vəhşicəsinə, savadsız və təcrübəsiz etdik ki, nəticədə bütün bunların əsasını rəhmətlik Heydər Əliyev qoydu. O belə şeylərin ustası idi" [6, s.32].

Yunus Oğuz "Tarix ibrətdir" əsərində Azərbaycan milli azadlıq hərəkatının, yeni dövlətçilik ənənələrinin yaranmasının, formalaşmasının fəlsəfi köklərinə enir, ideoloji baxışla dövrün hadisələrinin mahiyyətini, qanunauyğunluqları açır. Onun müstəqillik tariximizə baxışının obyektivliyi sayəsində həm tarixi hadisələr, həm də bu hadisələrin gələcəkdə yaratdığı əks-sədalar publisistik bir dillə, məhz vətənpərvərlik mövqeyindən şərh olunur.

Fəlsəfə tariximizdə ilk dəfə Yunus Oğuz bu əsərində müstəqillik tariximizi bir filosof kimi "milli təfəkkür" və "dövlətçilik təfəkkürü" anlayışlarının qovşağında bir daha təhlil edərək, bu dövrün fəlsəfi-ideoloji mənzərəsinin obyektiv elmi şərhini təqdim edir. Yunus Oğuz müstəqilliyimizin ilk illərində yaranan problemlərin, "Gəncə qiyamı"nın kökündə vətəndaşlarda vətən anlayışının üstünlüyünün, dövlət təfəkkürünün hələ formalaşmamasının dayandığını qeyd edərək, Heydər Əliyev fenomeninin önəmini, onun milli təfəkkürlə idarə olunan bir cəmiyyətə dövlət təfəkkürlü idarəetmə gətirməklə xalqın gələcəyinin qurtarıcısı olmasını vurğulayır.

## Nəticə / *Conclusion*

"Heydər Əliyev 2003-cü ildə Azərbaycandan ayrıldıqdan sonra daha nəhəng görünür. Onun ölümündən on yeddi il keçib, amma baxırsan ki, uzaqda bir zirvə kimi durur. İllər keçdikcə bu zirvə daha da nəhəngləşir. O özü bir nəhəng fikir babası, siyasi-ictimai xadim olduğundan və Azərbaycanın özü zaman-zaman getdikcə nəhəngləşdiyindən onun dövlətdə yeri və rolu, xidməti indi daha çox başa düşülür" [6, s.43]. Ümummilli liderin layiqli varisi, Qarabağı, Şuşanı xalqımıza yenidən qaytaran, Azərbaycanın adını dünyanın qüdrətli ölkələri ilə bir sırada yazdıran Prezident İlham Əliyevin rəhbərlik etdiyi müasir Azərbaycanın vətəndaşı, tariximizi romanlarında təbliğ edərək yaşadan, milli azadlıq mübarizəsinin iştirakçısı Yunus Oğuzun Heydər Əliyev fenomeni haqqında bu sözləri yetkin elmi-fəlsəfi qənaətdir və gələcəkdə Ümummilli liderin bədii obrazının yaradılması üçün istinadgahdır.

**Ədəbiyyat / *References***


1. 30 avqust 2021-ci ildə Şuşada Vaqif poeziya günlərində Vaqifin məqbərəsinin təmirdən sonra açılışında Prezident İlham Əliyevin çıxışı https://president.az/az/articles/view/52881
2. Anar. Qalib gəldi, qalib getdi // "Ədəbiyyat qəzeti" 16 dekabr 2003.
3. Elçin. Dünya axirət əkini // "Xalq qəzeti", 2023-cü il, 4 may.
4. Qalib Şəfahət. "Xilaskar" // "İki sahil" qəzeti, 8 may 2021-ci il.
5. Nicat Kamranoğlu "Təxəyyül reallığı" // "Respublika" qəzeti, 2018-ci il 18, 20, 25 may tarixli saylar.
6. Yunus Oğuz. Tarix ibrətdir: Keçmişdən gələcəyə nə daşıyırıq? – Bakı, 2022.


## Образ Общенационального лидера Гейдара Алиева в литературном, литературно-документальном, философско-публицистическом контексте независимости


**Эльнара Гарагозова**
Доктор философии по филологии, доцент
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: e.garagozova.bsu@gmail.com



**Резюме.** Проблема освещения личности Гейдара Алиева, всемирно известного политического лидера, с разных сторон всегда находилась в центре внимания современных отечественных и зарубежных научных центров. Образ национального лидера разработан с учетом исторических, философских, публицистических, политических и художественных аспектов, по этой теме проведены ценные исследования. Помимо закрепления образа Гейдара Алиева как покровителя литературы и культуры, упомянутые произведени, мемуары представляют ценность и как историко-художественные документы, отражающие очертания борьбы великого лидера за признание того факта, что Карабах является неотъемлемой частью Азербайджана и освобождение нашей страны от захватчиков.


**Ключевые слова:** общенациональный лидер, мемуары, рассказ, образ, философия